

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 28 (23.440)

12 fevral 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 11-də Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşüb və burada təşkil olunan bir neçə sərgi ilə tanış olublar.

Dövlətimizin başçısı Əlibaba Məmmədovu 90 illik yubileyi münasibətilə təbrik edib, ona cansağlığı, uzun ömür arzulayıb. Bildirilib ki, o, bir həftə bundan əvvəl Azərbaycan dövlətinin yüksək ordeni olan "Şərəf" ordeni ilə təltif olunub.

Prezident İlham Əliyev "Şərəf" ordenini Əlibaba Məmmədova təqdim edib.

Əlibaba Məmmədov ölkə başçısına minnətdarlıq edib və bildirib ki, ulu öndər də mənim sənətimə çox yüksək qiymət verib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 11 fevral tarixli Sərəncamı ilə vergi xidməti işçiləri peşə bayramı günü münasibətilə təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin əməkdaşları da vardır.

**Hüseynov İlham Qulamhüseyn oğlu**

2-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə,

**Şabanov Əli Hacı oğlu**

3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda İran İslam Respublikasının yaranmasının 41-ci ildönümü münasibətilə tədbir keçirilib





Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu İran İslam Respublikasının yaranmasının 41-ci ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilmiş, "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni çıxış edərək İran İnqilabının tarixinə nəzər salmış, ölkəsinin keçdiyi inkişaf yolundan danışmışdır. İran İslam Respublikasının Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrini diqqətə çatdıran Baş konsul qarşılıqlı əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İnqilabının 41-ci ildönümü münasibətilə qardaş İran xalqını təbrik etmiş, İran dövlətinə inkişaf və tərəqqi arzulamışdır. Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"İran ilə Azərbaycan arasındakı əlaqələrin çox zəngin tarixi vardır. Biz Azərbaycan-İran əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ümid edirəm ki, gələcəkdə də bu əlaqələr inkişaf edəcəkdir"*** fikirlərini xatırladaraq demişdir: "Bu gün ulu öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq ilbəil möhkəmləndirilir. Ölkə Prezidentlərinin qarşılıqlı səyləri, həyata keçirilən rəsmi səfərlər dövlətlərarası münasibətləri yeni inkişaf mərhələsinə yüksəldib".

Sözsüz ki, ikitərəfli əlaqələrdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əməkdaşlıq xüsusi yer tutur. Ötən dövrdə bu istiqamətdə mühüm işlər görülmüş, enerji, nəqliyyat, təhsil, turizm, iqtisadi-ticarət və səhiyyə sahələrində əməkdaşlıq üçün hərtərəfli zəmin yaradılmışdır. 2019-cu il dekabrın 1-dən etibarən muxtar respublikaya səfər edən İran İslam Respublikası vətəndaşlarının giriş və viza tələbindən azad olunması isə əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Ali Məclisin Sədri səmimi dostluq və qardaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmiş, bir daha İran xalqını İslam İnqilabının ildönümü münasibətilə təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

### İcmal

## 2020-ci il də muxtar respublikamız üçün uğurlu olacaq

### Yeni ilin ilk ayının nailiyyətləri belə deməyə əsas verir

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin ardıcıl şəkildə davam etdirilməsi nəticəsində tarixin arxivinə verdiyimiz 2019-cu il də muxtar respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında böyük uğurlarla yadda qaldı. Sabitlik, davamlı inkişaf və tərəqqi burada insanların rahat yaşayışının təmin olunması ilə yanaşı, mühüm sosial infrastruktur tədbirlərinin həyata keçirilməsi ilə nəticələnmişdir ki, bu da ölkəmizdə insan amilinə verilən dəyərin ifadəsidir. Bu ifadə isə daha əhəmiyyətli bir məsələni – 30 il blokada şəraitində yaşayan bu yerin sakinlərinin qarşılaşdıqları bütün çətinliklərin dövlət qayğısı ilə həllini, yaranan bütün problemlərin böyük cidd-cəhdlə yerindəcə həll olunmasını, bir də sahib olduqları bugünkü inkişaf etmiş muxtar respublikanı ortaya qoymaqla ötən illərin Naxçıvanının ümumi mənzərəsini yaradır. Bu mənzərəni yeni ilin ilk ayının nailiyyətləri daha da zənginləşdirir.

Yeni ilə necə başlasan, elə də davam edər deyiminə əsasən naxçıvanlıların son 25 illik zaman çərçivəsində illəri uğurla başlayıb nailiyyətlərlə yola saldıqlarına nəzər salsaq, 2020-ci ilin də onlar üçün müvəffəqiyyətlərlə dolu olacağını əminliklə söyləmək olar. Elə yeni ili muxtar respublika sakinlərinin böyük ruh yüksəkliyi ilə qarşılamaları, yanvarın 1-də Naxçıvan şəhərində Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük səmimiyyətlə iştirakı, sakinlərin bayramını təbrik etməsi, burada ictimai iaşə xidmətinin təşkili ilə maraqlanması və uşaqlara hədiyyələr verməsi muxtar respublikanın inkişafında rəhbərlə əhali birliyinin ən başlıca amil kimi dayandığını bir daha sübut edir.

Yeni ilin ilk günlərində ən diqqətçəkən məsələlərdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 7 və 8 yanvar tarixlərində imzalanan fərmanlar və sərəncam oldu. Struktur islahatı, idarəetmənin təkmilləşdirilməsi və muxtar respublika iqtisadiyyatının inkişafının təhlükəsiz təmin edilməsi üçün "Naxçıvan Muxtar Respublikasının bəzi mərkəzi icra hakimiyyəti orqanlarının yenidən təşkil edilməsi barədə", "Naxçıvan Muxtar Respublikasında sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında", "Aqrar Sığorta Fondunun yaradılması barədə" fərmanlar və uşaqların sağlam böyüməsi üçün tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə "Ordubad Rayon Uşaq Xəstəxanasının yaradılması haqqında" Sərəncam muxtar respublikada 2020-ci il üçün də yeniliklər və innovasiyaların tətbiqi mahiyyətini daşıyır.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir".*** Bu gün müstəqil Azərbaycanda Sərhəd Qoşunları fəaliyyət göstərir və ölkəmizin sərhədləri etibarlı qorunur. Strateji əhəmiyyəti nəzərə alınan muxtar respublikamızda əsasını ulu öndərimizin qoyduğu sərhəd zastavalarının yaradılması işi sonrakı illərdə Ali Məclisin Sədri tərəfindən davam etdirilmişdir. Yanvarın 8-də "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 3-cü Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi bu sahəyə göstərilən diqqətin daha bir təzahürüdür. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərhədçiləri salamlamış, onların ailə üzvləri ilə görüşmüşdür. 3-cü Sərhəd Zastavası üçün yeni xidməti və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: ***"3-cü Sərhəd Zastavası 1981-ci ildə – Sovetlər Birliyi dövründə yaradılmışdır. Üç ölkənin sərhədinin kəsişdiyi ərazidə yerləşən zastavada heç vaxt bu cür xidməti şərait olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ərazinin vacibliyi nəzərə alınmış, zastavanın fəaliyyətinin təmin olunması sahəsində işlər görülmüşdür. Sovetlər Birliyi dövründə Sədərək rayonu ərazisindəki birinci sərhəd zastavası və Ordubad istiqamətindəki iki zastava Naxçıvan Sərhəd Dəstəsinə tabe deyildi. Lakin***

*Ardı 2-ci səhifədə*

***ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində Ordubad və Sədərək istiqamətlərində olan zastavalar Naxçıvan Sərhəd Dəstəsinin tabeliyinə verildi və onlar üçün xidməti şərait yaradıldı".***

Ali Məclisin Sədrinə məlumat verilmişdir ki, 3-cü Sərhəd Zastavası əsaslı şəkildə yenidən qurulmuşdur. Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, subay zabitlər üçün istirahət yerləri, sinif otağı, silah, rabitə və digər xidməti otaqlar, yeməkxana, mətbəx və ərzaq anbarı yerləşir. Ərazidə sərhədçi ailələri üçün 12 mənzilli 2 mərtəbəli xidməti yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq və silah anbarları, avtomobillər üçün 2 saxlanc yeri, xidməti heyvanlar üçün yardımçı bina və helikopter meydançası inşa edilmişdir.

***"Sərhəd ölkə üçün vacib sahə, onu qorumaq isə şərəfli peşədir"***, – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, şəxsi heyətə xidmətdə uğurlar arzulamışdır.

Azərbaycan dövlətinin inkişaf dinamikasını əks etdirən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Dahi şəxsiyyətin yolunun davam etdirilməsi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Muxtar respublikada enerji, ərzaq, müdafiə və informasiya təhlükəsizliyi təmin olunmuşdur. Bu gün hər bir sahədə yenilik, tərəqqi müşahidə olunur. Geniş quruculuq işləri aparılır, müasir kənd infrastrukturu yaradılır. Bütün bunlar isə insanların sosial rifah halının yüksəlməsinə xidmət edir.

Yanvarın 13-də Ordubad rayonunun Vənənd kəndində yeni sosial obyektlərin istifadəyə verilməsi həm 2020-ci ilin ilk quruculuq ərmağanları, həm də vənəndlilərə yeni il hədiyyəsi kimi yadda qalmışdır. Həmin gün kənddə müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş, hərtərəfli şərait yaradılmış 432 şagird yerlik məktəbin, uşaq musiqi məktəbinin, həkim ambulatoriyasının, dövlət qurumlarının birgə fəaliyyəti üçün yeni kənd və 9 nəfərin işlə təmin olunduğu xidmət mərkəzlərinin açılışı olmuş, rayonun Xanağa-Ağrı-Dizə-Vənənd kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Ali Məclisin Sədri Vənənd kəndinin sakinləri ilə görüşmüş, kəndin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə onları təbrik etmiş, bu gün kənd xidmət mərkəzində satılan məhsulların 90 faizinin yerli istehsal olduğunu, muxtar respublikamızda 2019-cu ildə elan olunmuş "Ailə təsərrüfatları ili"nə bu kəndin xüsusi töhfə verdiyini, təsərrüfatların inkişaf etdiyini vurğulamış, bütün bunlara görə sakinlərə təşəkkürünü bildirərək demişdir: ***"Vənənd muxtar respublikamızın böyük kəndlərindəndir. Kənddə aparılan quruculuq işləri həcminə görə bir rayonda görülən işlərə bərabərdir. Artıq kənddə bütün sahələr üzrə müasir iş şəraiti yaradılıb. Yaxşı iş şəraiti olan yerdə isə yüksək əhval-ruhiyyə, dövlətə və sabaha inam olur. Bir sözlə, Vənənd müasir Azərbaycan kəndinin nümunəsidir. Ona görə də yaradılanlar qorunmalı və onlardan səmərəli istifadə olunmalıdır".***

Muxtar respublikada quruculuq işlərinin coğrafiyası genişləndirilib. İndi artıq kəndlərimizdə insanların təkcə müasir sosial obyektlərə olan tələbatı ödənmir, həm də onların ən yeni texnologiya ilə dünyaya çıxışı, informasiya təminatı yaxşılaşdırılır. Yanvarın 13-də Ordubad rayonu ərazisində 12 televiziya və 10 radio yayımını təmin edən Dəstə Radio-Televiziya Verici Stansiyasının yeni binasının ən son müasir avadanlıqlarla təchiz olunaraq istifadəyə verilməsi, burada 150 metrlik qüllədə mobil rabitə baza stansiyalarının, televiziya və radio vericilərinin şüalandırıcıları, anten-fider sistemləri qurulması, radio-rele avadanlıqlarının qəbuledici-verici çanaq antenlərin montaj olunması ərazidə teleradio yayımlarının kəsintisiz həyata keçirilməsinə imkan verəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov stansiyanın açılışında iştirak etmiş, kollektivə təbriklərini çatdırmış, binada yaradılan şəraitlə maraqlanmış və demişdir ki, muxtar respublikamızda bu sahənin inkişafı da diqqətdə saxlanılmış, 2018-ci ildə İbadulla Radio-Televiziya Verici Stansiyası yenidən qurulmuşdur. Vurğulanmışdır ki, istifadəyə verilən Dəstə Radio-Televiziya Verici Stansiyasında avadanlıqları yaxşı öyrənmək, onlara düzgün xidmət göstərmək kollektivin qarşısında duran əsas vəzifədir. Vurğulanmışdır ki, bəzi ölkələrdə analoq yayımdan rəqəmsal yayıma keçidə yenicə başlanılmışdır. Lakin muxtar respublikada bir neçə il bundan əvvəl tam rəqəmsal yayıma keçilmişdir. Ali Məclisin Sədri kollektivə avadanlıqlara yaxşı xidmət göstərməyi, onları qorumağı tövsiyə etmişdir.

Muxtar respublikamız tarixi keçmişimizin, adət-ənənələrimizin qorunub yaşadıldığı unikal diyardır. Ötən illərdə buradakı qədim tarixi mədəniyyət abidələrinin bərpası, onların pasportlaşdırılması, muzeylərin yaradılması, xalq yaradıcılığı, sənətkarlığı istiqamətində görülən işlər Naxçıvanın dünəni ilə bu günü arasında əbədi bir körpü yaratmışdır. Muxtar respublikada su dəyirmanlarının yenidən bərpa olunması da tarixi mirasımıza, adət-ənənələrimizə göstərilən diqqətin davamı olmaqla yanaşı, həm də insanların sağlam həyat tərzinə hesablanıb.

Ruzi-bərəkət rəmzi kimi məişət mədəniyyətimizin ayrılmaz parçası olan su dəyirmanları həm də taxılçılığın inkişafının təzahürüdür. Taxılın su dəyirmanlarında üyüdülməsi ilə bağlı yaranan adət-ənənələr onun əhəmiyyətini bu günədək qoruyub saxlamışdır. Ordubad rayonunun Darkəndində su dəyirmanının bərpası da tarixi keçmişimizə verilən dəyərin daha bir göstəricisidir.

Yanvarın 13-də Ali Məclisin Sədri cənab Vasif Talıbov su dəyirmanının açılış mərasimində iştirak etmiş, kənd sakinləri ilə görüşmüş, onları təbrik edərək demişdir ki, vaxtilə su dəyirmanından bu ərazidə yaşayan insanlar istifadə etmişdir. Ötən əsrin 90-cı illərinin acı nəticələri bu cür abidələrimizə də təsir etmiş, su dəyirmanlarının fəaliyyəti dayanmışdır. Lakin bir neçə ildir ki, muxtar respublikamızda su dəyirmanlarının bərpasına başlanılıb. Muxtar respublikamızın bütün ərazisində müasir dəyirmanlar fəaliyyət göstərir. Lakin su dəyirmanlarında istehsal edilən una ehtiyacı olan insanlar var. Ona görə də su dəyirmanlarının bərpası diqqətdə saxlanılır.

30 ilə yaxın blokada şəraitində yaşayan Naxçıvanın yeni inkişaf mərhələsi ulu öndərin ən yaxın çevrəsində zəngin dövlətçilik məktəbi keçən, böyük təcrübəyə yiyələnən, onun davamçısı olmaq etimadı qazanan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilmişdir. O inkişaf mərhələsi ki, 25 il bundan əvvəl söylənilən ***"Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm"*** prinsipinə əsaslanaraq əməli xidmətlə, bir də yüksək vətənpərvərlik, yorulmaz fəaliyyət, böyük iradə və əzmlə Naxçıvanı hərtərəfli tərəqqiyə qovuşdurmuşdur.

Ömrünün 25 ilini blokada vəziyyətində yaşayan Naxçıvanın ən çətin vaxtlarından inkişaflı, tərəqqili bu gününədək həsr edən cənab Vasif Talıbovun yanvar ayında 60 yaşı tamam oldu. Bu münasibətlə Prezident cənab İlham Əliyev Azərbaycan Respublikasında dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə "V.Y.Talıbovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında" 2020-ci il 13 yanvar tarixdə Sərəncam imzalamışdır. Bu sərəncam Ali Məclisin Sədri cənab Vasif Talıbovun şəxsində ölkə başçısı tərəfindən, ümumilikdə, naxçıvanlılara verilən yüksək dəyərdir.

Ali Məclis Sədrinin vurğuladığı kimi, bu gün Azərbaycan dövləti qarşısında xidməti vəzifələrini layiqincə yerinə yetirənlərə, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda sağlamlığını itirənlərə, şəhid ailələrinə, eləcə də Çernobıl qəzasının aradan qaldırılmasında iştirak edən şəxslərə mənzil və avtomobillər təqdim olunur. Bu insanların dövlətimiz qarşısındakı xidmətləri nümunə gücündədir. Mənzil və avtomobillərin təqdim olunması isə dövlətimizin ərazi bütövlüyünün qorunmasında həyatını və sağlamlığını itirmiş şəxslərə göstərdiyi qayğının, ölkəmizdəki dövlət-xalq birliyinin daha bir ifadəsidir. Bu qayğının davamı olaraq yanvarın 14-də 1 şəhid ailəsinə, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 3 nəfərə fərdi yaşayış evləri və mənzillər, eyni zamanda Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda hərbi xidmət vəzifələrinin icrası zamanı və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 11 nəfərə "NAZ-Lifan 330" markalı avtomobillər təqdim edilmişdir. Ali Məclisin Sədri cənab Vasif Talıbov mənzil və avtomobillə təmin olunanları təbrik etmiş, avtomobillərin açarlarını, fərdi yaşayış evləri və mənzillərin orderlərini təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad və Babək rayonlarında, həmçinin respublika və şəhər əhəmiyyətli tibb müəssisələrində icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. 2019-cu ilin dekabr ayından isə Culfa rayonunda icbari tibbi sığortaya keçidlə bağlı işlərə başlanılmış, rayon mərkəzi xəstəxanasında yenidənqurma işləri görülmüş, müasir tibbi avadanlıqlar quraşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2020-ci il 16 yanvar tarixdə Sərəncam imzalamışdır. Həmin gün Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilmişdir. Ali Məclisin Sədri tədbirdə iştirak etmiş, icbari tibbi sığortanın tətbiqi münasibətilə rayon əhalisini və tədbir iştirakçılarını təbrik etmişdir.

Həmin gün Culfa rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə də keçirilmişdir. Ali Məclisin Sədri rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı maarifləndirmə işlərinin aparılması, görüşlərin keçirilməsi, sakinlərə ətraflı məlumatların verilməsi, həmçinin göstərilən tibbi xidmətin keyfiyyətinin daim diqqətdə saxlanılması, qaydalara əməl edilməsi, nizam-intizamın gücləndirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" imzaladığı Sərəncamda da qeyd olunduğu kimi, 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.

Yanvarın 20-də ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da 20 Yanvar faciəsinin növbəti ildönümü anılmışdır. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlmiş, burada Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Tədbirdən sonra Ali Məclisin Sədri şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilən, ümumilikdə, fondunda xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilən 2 minə yaxın eksponat olan Xatirə Muzeyində olmuşdur.

Ali Məclisin Sədri Xatirə Muzeyində məktəblilərin iştirakı ilə açıq dərslərin keçilməsi və qəhrəmanlıq tariximiz barədə gənc nəslin məlumatlandırılmasının vacibliyini vurğulamışdır.

Muxtar respublikanın ictimai, sosial-iqtisadi, mədəni inkişafında iştirak edən insanların əməyinin qiymətləndirilməsi, yubileylərinin keçirilməsi diqqətdə saxlanılan əsas məsələlərdəndir. Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvanda musiqi sənətinin inkişafında xidmətlərinə görə "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam da belə insanlara verilən dəyərin növbəti təzahürüdür.

Muxtar respublikada aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks islahatlar və göstərilən dövlət dəstəyi nəticəsində əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Kənd təsərrüfatının inkişafında əsas sahələrdən biri də baytarlıq təbabəti və baytarlıq xidmətinin təşkilidir. Ali Məclis Sədrinin də vurğuladığı kimi, baytarlıq xidmətinin düzgün təşkili həm əhalinin təsərrüfatının, əmlakının qorunmasına, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasına, insanların sağlamlığına, onların keyfiyyətli heyvandarlıq, quşçuluq və arıçılıq məhsulları ilə təminatına imkan verir.

Son illər muxtar respublikanın rayonlarında baytarlıq idarələri üçün müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyaların da fəaliyyət göstərdiyi yeni binaların tikilməsi, süni mayalanma məntəqələrinin yaradılması, kəndlərdə inşa olunan kənd mərkəzlərində baytarlıq xidməti üçün otaqların ayrılması bu sahədə qarşıya qoyulan vəzifələrin uğurla icrasına şərait yaratmışdır.

Yanvarın 28-də Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının istifadəyə verilməsi də kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış mərasimində iştirak etmiş, binaya baxmış, baytarlıq sahəsində Dövlət Proqramının hazırlanması və xidmətin təşkilində maarifləndirməyə diqqətin artırılması barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

*Naxçıvanın ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti, misilsiz dühası ilə təməli qoyulan inkişaf mərhələsinin uğurla və sədaqətlə davam etdirilməsi yeni ilin ilk ayında da həyata keçirilən çoxşaxəli işlərin xronikasında özünü göstərməkdədir. Nəticələr isə onu deməyə əsas verir ki, bu il də muxtar respublikamızda inkişaf davamlı xarakter alacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi:* ***"Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".***

**Mətanət MƏMMƏDOVA**

# İslam Səfərlinin Naxçıvan dünyası



Nəğməkar şair, dramaturq İslam Səfərli 12 fevral 1923-cü ildə Babək rayonunun Şəkərabad kəndində dünyaya gəlib. O, mənalı ömrünə böyük bir sənətkar irsini sığışdıraraq yaddaşlarda əbədi qala bilib. Sənətkarın zəngin yaradıcılıq irsi bu gün də incəsənət adamlarının müraciət etdiyi əsas mənbələrdəndir. "Ana", "Yadıma düşdün", "Nə vaxta qaldı", "Aylı gecələr", "Ay qaşı, gözü qara qız", "Bir xumar baxışla", "Qonaq gəl bizə", "Bakı, sabahın xeyir!", "Bir könül sındırmışam" kimi sözlərində ürək və qəlb çırpıntılarının, sevgi və poetik hüsnrəğbətin duyulduğu, şirin, axıcı və gözəlliklərlə dolu əbədiyaşar mahnılara necə qulaq asmaya bilərik? Onun belə poetik nümunələrinə məşhur bəstəkarlarımız tərəfindən 200-ə yaxın mahnı bəstələnib. İndinin özündə də bu mahnılar dillər əzbəridir və sevilə-sevilə dinlənilir. Şairin bir çox şeirlərinə bəstələnmiş mahnılar Azərbaycan musiqi mədəniyyətinin, mahnı xəzinəmizin qızıl fondunu təşkil edən əsərlər sırasında yer alır.

İslam Səfərli ilk şeirlərini 17 yaşında ikən yazıb. Məktəbi bitirdikdən sonra könüllü olaraq 1941-1945-ci illər müharibəsində iştirak edib, müxtəlif cəbhələrdə döyüşüb, həmçinin müharibə əleyhinə mübarizəsini qələmi ilə davam etdirib. Müharibə bitdikdən sonra Vətənə qayıdan İslam Səfərli yaradıcılığı ilə təzliklə ədəbi aləmdə tanınır və sevilir. Oçerk, novella, libretto və kinossenari, məqalələr də yazır, xarici ədəbiyyatdan uğurlu tərcümələr edir. Onu insanlara ən çox sevdirən isə dərin duyğularla yazdığı şeirləri olur. Əsasən, heca vəznində yazan görkəmli şair, hətta "Heca vəzniyəm mən" adlı ayrıca bir şeirində bu vəznə sədaqətini, məftunluğunu bəyan edir. Onun güclü, romantik pafoslu şeirlərində çox dərin bir səmimiyyət duyulur. Bu şeirlərdəki şirinliyin, axıcılığın əsas səbəbi də şairin özünün dediyi kimi poetik ruhuna arxalanması idi.

"Bağrıma basmışam Azərbaycanı – Araz bir qolumdur, Kür bir qolumdur", – deyən İslam Səfərli Azərbaycanı və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanı tükənməz ilhamla tərənnüm edib. Azərbaycan İslam Səfərli şeirinin ana mövzusu olmaqla, onun sönməz Vətən eşqinin möhtəşəm bir nümunəsidir:

*Əlvan naxışlısan, doğma məkanım,*
*Sənə qurban canım, Azərbaycanım!*

Naxçıvan elinin hər qarışı nəğməkar şairin yaradıcılığında öz bədii təsvirini tapıb. Bu vurğunluğu biz "Ey axarlı, ey baxarlı, ey gülzarlı Naxçıvanım", "İki Culfa", "Əbədiyyət nəğməsi", "Araz burulub keçir", "Tanış gözlər", "Gəlmişəm", "Batabat bulağı", "Qızlar bulağı", "Badamlı", "Görüş yeri", "Naxçıvanın duzu, qızı, qarpızı..." , "Həsrət nəğməsi", "Şərur düzləri", "Çex qızının məhəbbəti", "Qoşa söyüd", "Ordubad" və digər şeir və poemalarında aydın görürük. Şair qələmə aldığı əsərlərində "Şeirin, sözün Vətəni, xoş baharlı Naxçıvanım" deyərək ayın seyrə gəldiyi Qızlar bulağını, "Narzan" kimi qiymətli olan "Badamlı"sını, yurdumuzun gözəlliklərinin bir parçası olan Xalxal meşəsini, Naxçıvanın dərdlərə dərman duzunu, Araz dərdini, bu diyarın göy tarlalı Şərurunu, dalğalarla qucaqlaşan Arpaçayını, "böyük aləm" dediyi doğulduğu Şəkərabad kəndinin təbiətini, Batabatın qəlb ovsunlayan gözəlliyini, Əlincənin əzəmətini, Bəhruz Kəngərli kimi sənətkarlarını, Koroğlu, Babəktək qəhrəman oğullarını, xumargözlü qızlarını yüksək poetik səviyyədə, orijinal bədii vasitələrlə tərənnüm edib. Şair "Şərqin şöhrəti" (böyük ədib Cəlil Məmmədquluzadəyə), "Sevib yaşatdı" (Turan Cavidə), "Naxçıvan yadigarı" ("Naxçıvan yadigarı" mənzərə albomunun müəllifi rəssam Bəhruz Kəngərliyə) şeirlərində isə bu qədim diyarı elm və mədəniyyət ocağı, böyük sənətkarlar yurdu kimi məhəbbətlə təsvir edir.

Azərbaycan poeziyasında Naxçıvan haqqında şeir silsiləsinin görkəmli yaradıcısı hesab olunan İslam Səfərlinin bu qəbildən olan şeirlərini oxuduqca bizə bir daha aydın olur ki, onun üçün Naxçıvan xatirələrinin qorunub saxlandığı ata-baba yurdu kimi doğma, həm də yaradıcılığında ömrü boyu ilham aldığı torpaq kimi əzizdir. Onun "Naxçıvanım"şeiri isə doğma diyarımıza həsr edilmiş dolğun, gözəl poetik nümunə kimi xoş təsir bağışlayır. Bu şeirdə şairin Naxçıvan torpağının vurğunu olduğunu hər bəndin hər misrasında hiss edirik:

*Çöllərindən keçən mənəm,*
*Söz qoşmamış keçən mənəm,*
*Sularından içən mənəm,*
*Mənim barlı Naxçıvanım,*
*Xoş baharlı Naxçıvanım.*

*...Gör nə çalır könül simi:*
*-Şeirə verdim mən eşqimi.*
*Mirzə Cəlil, Bəhruz kimi,*
*Sənətkarlı Naxçıvanım,*
*Xoş baharlı Naxçıvanım.*

Şairin "Naxçıvanın duzu, qızı, qarpızı..." adlı şeirindəki ifadələr artıq zərbi-məsələ çevrilib. "Azərbaycan torpağının bərəkətli guşəsi", – deyə bəhs etdiyi Şərur elini vəsf edərkən "Naxçıvanın Şəruru var, Şərurun da qüruru var" misraları ilə diqqəti çəkən şair mərcangözlü Batabat yaylağı haqqında yazdığı şeirdə isə Batabatı özünəməxsus şəkildə təsvir edərək oxucuda da həmin məkan haqqında heyranedici təsəvvür yaradır:

*Bulaqların bir səmtədir axarı,*
*Salvartının xoş görünür baxarı,*
*Biçənəkdən at səyirdib yuxarı*
*Yalmanına yata-yata gəlmişəm,*
*Mərcangözlü Batabata gəlmişəm.*

Şairin "Naxçıvan yadigarı" adlı mənzərələr silsiləsi Azərbaycan realist təsviri incəsənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərliyə həsr olunub. Bu şeirində o, doğma diyar haqqında mənalı, ümumiləşmiş bir mənzərə tablosu yaradır. "Nə vaxta qaldı", "Döyüşçünün xəyalı", "Təhsil illəri" şeirlərində isə doğulub boya-başa çatdığı Şəkərabad kəndindəki ata-baba ocağını təsvir edir, uşaqlıq və gənclik illərini xatırlayır, bu poetik nümunələrdə onun doğma yurdu üçün qəribsədiyi hiss olunur.

Şair təkcə qədim diyarı Naxçıvanı yox, bütövlükdə, doğma Vətənimizin hər bir qarışını ürəkdən sevib, yaradıcılığında ölkəmizin ayrı-ayrı guşələrini məhəbbətlə təsvir edib, indi də sevilə-sevilə oxunan şeir dünyası formalaşdırıb.

Şair dramaturgiya sahəsində də qələmini sınayıb, bir-birindən gözəl nümunələr yaradıb. Onun "Dar ağacı", "Ana ürəyi", "Yol ayrıcında", "Yadigar", "Xeyir və şər" dramları, "Qayın arvadı, xayın arvadı" komediyası və bir çox radio pyesləri indi də sevilən əsərlər sırasındadır. "Göz həkimi" pyesi isə ona dramaturq kimi ən böyük şöhrəti qazandırıb. Onun pyesləri dəfələrlə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulub.

İslam Səfərlinin xidmətləri yüksək qiymətləndirilib. O, 1974-cü ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. Doğma yurdu Naxçıvanda görkəmli şair və dramaturqun 90 illik yubileyi geniş şəkildə qeyd edilib, həyat və yaradıcılığına həsr olunmuş kitab və jurnallar işıq üzü görüb, Naxçıvan şəhərindəki küçələrdən birinə onun adı verilib.

İslam Səfərli uzunsürən xəstəlikdən sonra, 1974-cü ildə həyatdan çox erkən köçməsinə baxmayaraq, işıqlı dünyada öz izini qoyan sənətkarlarımızdan biridir. Onun qələmə aldığı aşağıdakı misralar bunu bir daha təsdiq edir:

*Günlər keçir birəm-birəm,*
*Bir uğurlu yol gedirəm.*
*Yurdumuzu vəsf edirəm*
*Əldə qələm, dizdə varaq –*
*Mənə qalan bu olacaq.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*AMEA Naxçıvan Bölməsində bölmənin Batabat Astrofizika Rəsədxanasının təşkilatçılığı ilə böyük Azərbaycan alim və mütəfəkkiri Məhəmməd Nəsirəddin Tusiyə həsr olunan elmi konfrans keçirilib.*

## Böyük Azərbaycan aliminə həsr olunan elmi konfrans keçirilib



Tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev ensiklopedik biliyə malik alimin müxtəlif elm sahələrinin inkişafına verdiyi töhfələrdən danışıb. Bildirib ki, Nəsirəddin Tusi elmin müxtəlif istiqamətləri ilə dərindən maraqlanıb, astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrə həsr olunmuş əsərlər yazıb. Onun yaradıcılığında astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur.

Vurğulanıb ki, Nəsirəddin Tusi Şərq dünyasında etikaya dair "Əxlaqi-Nasiri" adlı əsəri ilə xüsusi rəğbət qazanıb. Sözügedən əsər tərbiyəvi əhəmiyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncamla "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilib.

İsmayıl Hacıyev ölkəmizdə dünya şöhrətli alimin yubileylərinin qeyd olunduğunu, əsərlərinin kütləvi şəkildə çap edildiyini, onun haqqında çoxsaylı kitab və məqalələrin yazıldığını bildirib.

Konfransda bölmənin Təbii Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, kimya üzrə elmlər doktoru Bayram Rzayevin, Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Qulu Həziyevin, Əlyazmalar Fondunun şöbə müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimovun, Batabat Astrofizika Rəsədxanasının kiçik elmi işçiləri Vəfa Qafarova və Türkan Məmmədovanın böyük alimin həyatı, elmi fəaliyyəti ilə bağlı məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi***

*Şərəfli peşə sahibləri*

# Ən böyük mükafatı sağalan xəstənin təbəssümüdür



İnsan o zaman xoşbəxt ola bilər ki, öz peşəsini ürəkdən sevsin. Hər zaman düşünsün ki, bu peşə insanlara lazımdır və onun əməyi ehtiyacı olanlara fayda gətirə bilər.

Bu təəssüratlar Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsinin bölmə müdiri, gözlərə nur bəxş edən oftalmoloq-həkim Kəmalə Əliyeva ilə söhbətimizdən yadımda qalanlardır. Həyat yoluna isə özü güzgü tutduğundan olduğu kimi təqdim edirəm.

O, 2005-ci ildə Azərbaycan Tibb Universitetini bitirdikdən sonra Bakı şəhərindəki klinikalardan birində 10 ilə yaxın müddət ərzində həkim-oftalmoloq işləyib. Ötən illər ərzində Kəmalə həkim ixtisaslaşma üçün dəfələrlə İtaliya, Rusiya, Türkiyə, Sinqapur, Malayziya kimi xarici ölkələrdə olub. Xüsusilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində gözün müxtəlif xəstəlikləri ilə bağlı kurslar keçərək peşəkarlaşıb, beynəlxalq səviyyəli konfranslarda iştirak və çıxışlar edib. İstanbul Universiteti Çapa Tibb fakültəsində keçirilən XIX Ümumdünya Tələbə Elmi Konfransında "Alkoqol və tütün intoksikasiyasından görmə sinirinin atrofiyası" mövzusunda elmi məqalə ilə çıxışı maraqla qarşılanıb. Məqalə yüksək qiymətləndirilərək həmin konfransın elmi jurnalında ingilis dilində nəşr edilib.

Onun həkim-rezident Aynur Rzayeva ilə birgə yazdığı, bu günlərdə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalında nəşr olunmuş məqaləsi də elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Kəmalə həkim 2015-ci ildən fəaliyyətini Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsində davam etdirir. O bildirir ki, uşaqlarda görmə zəifliyi, göz tənbəlliyi, çepliklər sıx rastlanan problemlərdəndir. Buna görə də adıçəkilən xəstəliklər barəsində dəfələrlə kütləvi informasiya vasitələrində çıxışlar edir, internet portallarına məqalələr yazır, valideynlərlə maarifləndirici görüşlər keçirir və onlara broşürlər təqdim edir.

Həkim 3 ildir, Naxçıvan Respublika Xəstəxanasında fəaliyyət göstərən Görmənin bərpası və mühafizəsi kabineti barədə məlumat verərək deyir ki, müasir aparatlarla təmin olunan kabinetdə sinaptoforla ambilopiyanın və göz çəpliyinin müalicəsi, çəplik bucağının ölçülməsi, ortoptik və pleoptik məşğələlər aparılır ki, bu da refraktiv qüsurların proqressivləşməsinin qarşısını alır, görmə itiliyinin yüksəlməsini təmin edir. Kabinetdə apardığımız məşğələlər zamanı bir çox xəstənin görməsinin bərpasına nail olmuşuq. Məlumat üçün bildirim ki, göz xəstəliklərinin müxtəlif növləri var. Bunun üçün hər bir pasiyentə, hər xəstəliyə fərqli yanaşma tələb olunur. Əgər xəstənə sevgi və qayğı ilə yanaşmasan, öz işini sevərək yerinə yetirməsən, ona şəfa verə bilməzsən. Həkim gərək, ilk növbədə, insanları sevsin. Məhz belə olduğu təqdirdə gördüyün iş faydalı olacaq.

Bir misal deyim: – 7 yaşlı bir xəstəmiz şiddətli baş ağrılarından şikayətlənir, zaman-zaman görmə itiliyinin pozulmasından əziyyət çəkirdi. Valideyni bizə qarşı əsəbi davransa da, onu anlayırdım, övladının tez sağalmasını istəyirdi. Uşağa gizli hipermetropiya diaqnozu qoyduq, 10 günlük müalicə kursundan sonra görməsi tam bərpa olundu. Bu kimi onlarla xəstələrimiz müalicə olunub, göz çəplikləri problemləri aradan qaldırılıb.

18 yaşlı bir xəstəmiz isə dəfələrlə xarici ölkələrdə müalicə və müayinələrdən keçmişdi. Türkiyədə aparılan müayinə zamanı şikayətləri əsaslandırıla bilmədikdə ona psixiatr müayinəsindən keçməyi məsləhət görmüşdülər. Bizə müraciət etdiyi zaman isə şikayətlərini dinləyib onu perimetriya etdik, xəstə hipofizin adenoması şübhəsi ilə MRT müayinəsinə göndərildi. Müayinədə diaqnozumuz təsdiqləndikdən sonra o, cərrahi əməliyyata alındı. Vaxtında aşkarlanan xəstəlik və qoyulan diaqnoz xəstənin həyati təhlükəsini aşmasına, sağlamlığına qovuşmasına imkan verdi.

Kəmalə həkim deyir ki, vaxtında müayinə və müalicə edildikdə xəstənin göz sağlamlığı ilə yanaşı, onun həyatını da xilas etmək mümkündür. Bu kimi hallarla çox rastlaşmışıq. Buna misal olaraq deyə bilərəm ki, yenidoğulmuş uşağın müayinəsi zamanı retina blastoma aşkarlanmışdı. Bundan sonra körpəni əməliyyat üçün göndərdik. Beləliklə, qoyduğumuz diaqnoz təsdiqlənərək körpənin gözündəki şiş götürüldü və həyatı xilas oldu.

Oftalmoloq keçirilən tədbirlərin də fəal iştirakçısıdır. Akademik Zərifə Əliyevanın anadan olmasının 96 illik yubileyi münasibətilə, "Gənclərlə sağlam gələcəyə" mövzusunda keçirilən konfranslarda Kəmalə həkimin çıxışları maraqla qarşılanıb. "Naxçıvan" Universitetində "Müasir kompüter, smartfon və günəş şüalarının gözə zərəri" mövzusunda seminar onun təşkilatçılığı ilə keçirilib. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü, Gənclər Günü ilə əlaqədar humanitar tibbi aksiyalarda uşaq və gənclərin müayinəsini təşkil edib, onlarla göz sağlamlığı mövzusunda söhbətlər aparıb və hədiyyələr təqdim edib.

Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə o, ildə iki dəfə məktəblərdə, bir dəfə bağçalarda dispanser müşahidələri aparır. Eyni zamanda diabetik göz dibi fəsadı olan retinapatiyanın diaqnozu və vaxtında aşkarlanıb müayinə edilməsi məqsədilə Sədərək rayonunda da dispanser müşahidələr həyata keçirir.

Kəmalə həkim deyir: – İnsanı həyata qaytarmaq, onun xəstəliyini müalicə etmək tək bir həkimlə mümkün deyil. Xəstəliyin müalicəsi və uğurlu əməliyyat kollektiv işin məhsuludur. Gərək həmin kollektiv təcrübəli, peşəkar heyətdən formalaşsın. Bu gün əldə etdiyim uğurlarda mənimlə birlikdə çalışan kollektivin müstəsna rolu var. Hər uğurlu əməliyyat birgə fəaliyyətimizin nəticəsidir.

Son olaraq isə qeyd edir ki, həkim hər şeydən əvvəl pasiyentinin halına ürək yandırmalı, ona kömək etməlidir. Şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın dediyi kimi, əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır.

**Hüseyn ƏSGƏROV**

Xalq təqvimi

# “Xıdır Nəbi” bayramı – baharın müjdəçisi

*Qədim Oğuz yurdu Naxçıvanda qış xalq təqvimi ilə bağlı keçirilən mərasimlərdən biri də “Xıdır” və yaxud “Xıdır Nəbi” bayramıdır. Tədqiqatlardan məlum olur ki, Şərur rayonunun Aşağı Yaycı kəndində “Xıdır” bayramı fevralın 5-i, qışın yarı olduğu gün keçirilir. Ordubad rayonunun Tivi, Kəngərli rayonunun Təzəkənd, Çalxanqala kəndlərində isə “Xıdır Nəbi” bayramı fevralın 14-ü (15-i) Xızır (ə.s.) anadan olduğu gün kimi qeyd edilir. Fəzail Vəliyev qeyd edir ki, Naxçıvan bölgəsində “Xıdır Nəbi” bayramı Kiçik çillənin ardıcıl olaraq üç cümə axşamında keçirilirdi. Bu bayramların birincisi “Şahlıq Xıdır Nəbisi”, ikincisi “Xanlıq Xıdır Nəbisi”, üçüncüsü isə “Rəiyyət Xıdır Nəbisi” adlanırdı. Xalqın inamına görə, “Xıdır Nəbi” bayramı Xızırın (ə.s.) və İlyasın (ə.s.) şərəfinə keçirilir.*

“Xıdır” süfrəsinin “şahı” qovurğa və qovutun hazırlanma qaydasını öyrənmək üçün Şərur rayonunun Aşağı Yaycı kənd sakini Fatma Əliyevanın qonağı olduq. Gəlişimiz bayram hazırlığına təsadüf edirdi. Ev sahibi buğda və çərəzləri qovurmaq üçün hazırlıq görürdü. Həyətdə ocağın üstünə qoyulmuş sacı yağlayan nənə ilə hal-əhval tutaraq elə ocaq başında söhbətə başladıq. O, əvvəlcədən təmizlənmiş buğdanı sacın içərisinə tökür və deyir ki, bərk bir parça və ya bez ilə buğdanı ara vermədən gah sacın ortasına, gah da kənarlarına yayırıq. Təxminən, 8-10 dəqiqə bunu davam etdiririk. Buğda rəngini dəyişib ağarmağa başlayır. Sonda qovrulmuş buğdanı ortaya toplayıb sacdan götürürük. Eyni qayda ilə küncüd və çətənəni də qovururuq, lakin onlara ayrılan vaxt buğdaya ayırdığımız vaxtdan az olur. Qovrulmuş buğda, küncüd, çətənə, fındıq, cəviz və badamı bir süfrənin üzərinə yayırıq ki, soyusun. Nənə onu da bildirir ki, qovurğanı soyuduqdan sonra şüşə qabda, ya da pambıq parçadan tikilmiş torbada saxlamaq lazımdır.

Qovurğa hazırlayan zaman diqqət etməli olduğumuz bəzi məqamlar haqqında söhbət açan nənə deyir:

– Ərzaqlar ayrı-ayrılıqda arıtlanıb təmizlənir. Sac əvvəlcədən qızdırılır, nə çox, nə də zəif isti olmamalıdır. Çox isti olanda buğ-



danın üzü yanacaq, özü isə çiy qalacaq, zəif isti olduqda isə bərk olacaq, keyfiyyətli çıxmayacaq.

Sonra qovutun hazırlanması qaydasından da danışan və onun üçün buğda qovurmağa başlayan Fatma nənə keçmiş günləri də yada salaraq deyir ki, o vaxtlar rəhmətlik nənəm bizə tez-tez qovut hazırlayardı. Müharibə vaxtları idi. Taxıl tapmaq çətin olduğu üçün məkə dənələrini qovurar, içinə azca buğda qatar, onu dəstərdə çəkər, bu unu doşab, su ilə qarışdırıb balaca yumurta şəklinə salardı. Biz də süfrə başına toplaşaraq bu dadlı taamı yeyərdik. Elə 90-cı illərin qanlı-qadalı günlərində də nənəmdən qalma bu dəstər imdadıma yetişdi, – deyib eyvandakı xalının üstündəki dəstəri göstərir. Həmin günlərdə də həyətdəki tutun meyvələrindən doşab bişirər, yayda tədarük etdiyim məkəni qovurar, o vaxt nənəmin öyrətdiyi kimi, mən də öz nəvələrimə qovut hazırlayardım. O çətin günlərdə də bayramlarımızı yaddan çıxarmır, qeyd edirdik. Şükür Allaha, çətinliklərimiz artıq geridə qalıb. Neçə illərdir ki, bu sac bayram qovurğası üçün ocağa asılır, o dəstər isə bayram qovutu hazırlamaqdan ötrü istifadə olunur. Bu gün mənim hazırladığım qovurğadan nəvəmin nişanlısına da pay gedəcək, axşam papaq atmağa gələn uşaqlara da veriləcək. Bax, o dağlarda keşiyimizi çəkən əsgər balalarımıza da göndərəcəm. Hamımızın arzusu budur ki, el-obamızda daim əmin-amanlıq olsun. Həmişə olduğu kimi, yenə də ulularımızdan yadigar qalan adət-ənənələrimizi beləcə,



deyə-gülə, xoşhallıqla qarşılayıb yola salaq.

Nənənin şirin söhbətinə qonşu Xalidə xala qoşularaq deyir ki, sac artıq hazırdır, qovut üçün buğda qovuraq, gözünə bir az da məkə qataq. O da nənəyə kömək edir. Əvvəlcə buğdanı sacda qovurur, qovurğa hazırlayır. Sonra məkəni də qovurur, aşsüzənə töküb əvsəyir. Qovurğanı isti-isti kirkirədə (əl dəyirmanı) üyüdən nənə deyir ki, bu, un kimi çox narın olmamalıdır. Qovrulmuş buğda üyüdüldükdən sonra bir xəlbirə tökülür və ələnir. Qovut unu bez torbada və yaxud da ağzı möhkəm bağlanan bir qabda quru şəraitdə uzun müddət saxlanıla, istifadə oluna bilər. Bu taam həm doyurucu, həm də çox faydalıdır. Onu hazırlamaq üçün bir qaba qovutu tökür, istəyə uyğun olaraq mürəbbə şirəsi, doşab, bal, şəkər və isti su əlavə edirik. Suyu və şəkəri bu una qatanda xüsusi bir ətir yanır. Hazır məhsulu bir az saxlayır, sonra istədiyimiz formaya salıb qablara yığırıq.

Qovurğa və qovutu hazırladıqdan sonra sacı və dəstəri gələn bayrama kimi əl damına yerləşdirən nənə Novruzun gəlişinə səməni üçün də buğda seçib bir kənara qoyur. Biz də sağollaşıb yola çıxırıq. Yolboyu yadıma AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucov və filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Elxan Yurdoğlunun birgə hazırladıqları “Naxçıvanda bayram və mərasimlər” monoqrafiyasından “Xıdır” bayramı haqqında yazıları düşür: Toplanmış materiallardan məlum olur ki, bir sıra kəndlərdə (Qıvraq, Kükü, Yuxarı Qışlaq) “Xıdır Nəbi” bayramı günü xına yaxmaq adəti mövcuddur. Qızlar, gəlinlər əl barmaqlarına, oğlanlar isə çeçələ barmaqlarına xına yaxarlar. Hazırlanmış xınadan bir qab pay götürüb (Xıdır payı) bayıra qoyurlar ki, Xızır gəlib əlinə yaxsın.

Mənbələrə əsaslanaraq demək olar ki, xına çox qədim dövrlərdə Azərbaycan türklərində və digər türk xalqlarında şadlıq, sıxıntıdan, yasdan çıxmaq rəmzidir. Xalq arasında olan digər inama görə, “Xıdır Nəbi” günü havaların xoş keçməsi, ilin bol-bərəkətli olmasına işarədir. Yuxarıda sadaladığımız toplama materiallarından aydın olur ki, “Xıdır Nəbi” bayramı məhsuldarlıq, bolluq-bərəkət rəmzidir, mövsümlə əlaqədar olub, türklərin yazı çağırma diləklərinin ifadəsidir. Bir sıra xalqlarda, xüsusən türk xalqlarının yayıldıqları ərazilərdə bu mərasim qışın yola salınması və yazın çağırılması ilə bağlıdır. Bununla əlaqədar folklor nümunəsinə də rast gəlinir:

*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*

Naxçıvanda bayrama bir neçə gün qalmış onu qarşılamaq üçün hazırlıq işləri görülür, evlər səliqəsahmana salınır. İnama görə, səliqəsiz evə Xızır (ə.s.) gəlməz. Bayramda qovurmaq üçün buğda, küncüd təmizlənir, bir çox kəndlərdə (Kükü, Teyvaz, Qıvraq, Şahtaxtı) Günəşin, yazın rənginə uyğun olaraq yumurtalar əlvan rəngə boyanılır. Qeyd edək ki, yumurta boyanması başqa kəndlərdə yoxdur. Ümumiyyətlə, bu adətə, əsasən, Novruz bayramında əməl edilir. Bəzi kəndlərdə isə Günəşin, istiliyin rəmzi olaraq çömçə bəzəyirlər. Bildirmək istərdik ki, Naxçıvan bölgəsində Günəşi çağırmaq anlamında “Qodu” mərasimi (Novruz bayramı ərəfəsində) keçirilir.

*Zəngin milli dəyərlərə malik xalqımıza məxsus hər bir bayram öz gəlişi ilə əlamətdardır. Xalq təqvimində xüsusi yeri olan “Xıdır Nəbi” bayramı da baharın müjdəçisidir. Yüz illərdir, bu el mərasimini qeyd etməyi yaddan çıxarmayan xalqımız bu gün də xoş əhval-ruhiyyə ilə yenə də “Xıdır”ı qarşılayır.*

**Ramiyyə ƏKBƏROVA**

# “Naxçıvandan dünyaya” müsabiqəsinin qalibləri mükafatlandırılıb



*Fevralın 11-də Naxçıvan Şəhər Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə “Naxçıvandan dünyaya” sosial çarx və qısa filmlər müsabiqəsinin yekun tədbiri keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, son illər sosial-iqtisadi, elmi-mədəni inkişafı ilə tərəqqiyə qovuşan muxtar respublikamızda mədəniyyətin bütün sahələrinin inkişafına böyük diqqət və qayğı göstərilir.

Bildirilib ki, son illər qədim diyarımızda gənclərin incəsənətin müxtəlif sahələrinə marağının gündəngünə artması gənc nəsildə yaradıcı düşüncənin formalaşmasına səbəb olur. Nazir diqqətə çatdırıb ki, ötən il noyabr ayının 15-dən elan olunan “Naxçıvandan dünyaya” sosial çarx və qısa filmlər müsabiqəsi”nin keçirilməsində əsas məqsəd gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi, qədim diyarımızın görkəmli şəxsiyyətlərinin, xalqımızın milli-mənəvi və ümumbəşəri dəyərlərinin, adət-ənənələrinin, həmçinin müstəqillik illərində muxtar respublikanın inkişafının, müasir tərəqqisinin təbliğindən ibarət olub. Müsabiqə müddətində təşkilat komitəsi tərəfindən videomaterial təqdim etmək istəyən müəlliflər üçün sosial çarxın və qısa filmin hazırlanması mövzusunda seminarlar təşkil edilib, bu istiqamətdə geniş maarifləndirmə işi aparılıb.

Natəvan Qədimova çıxışının sonunda qalibləri təbrik edib, müsabiqənin bütün iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək muxtar respublikamızda müasir gəncliyin inkişafı üçün yaradılan hərtərəfli şəraitdən danışıb. Qeyd olunub ki, artıq yekunlaşan müsabiqə də bu istiqamətdə görülən işlərin səmərəliliyini artırmağa xidmət edir.

Gənclərin aktivliyinin artırılması və onların yaradıcılıq fəaliyyətlərinə cəlb edilməsi məqsədilə bu cür tədbirlərin davamlı təşkil olunacağını diqqətə çatdıran Cəbi Quliyev müsabiqə iştirakçılarına, təşkilat komitəsinə və münsiflər heyətinə təşəkkür edib, qalib müəllifləri təbrik edərək onlara müvəffəqiyyətlər arzulayıb.

Sonra müsabiqə qalibləri elan edilib və mükafatlandırılıb. Qeyd olunub ki, iki mərhələdən ibarət olan müsabiqədə 18-35 yaşlar arasında həvəskar müəlliflər iştirak edib, 13 müəllif tərəfindən 17 sosial çarx və qısa film təqdim olunub. Xronometrajı 15 dəqiqədən çox olmayan və 2019-2020-ci illərdə hazırlanan bu videomateriallar heç yerdə yayımlanmayıb.

Müsabiqəyə təqdim edilmiş sosial çarx və qısa filmlərə əvvəlcədən müəyyənləşdirilmiş münsiflər heyəti tərəfindən iki mərhələdə olmaqla baxış keçirilib və 10 ballıq sistem üzrə qiymətləndirmə aparılıb. Qiymətləndirmə zamanı təqdim edilən sosial çarx və qısa filmlərin bədii səviyyəsi və keyfiyyəti, təqdim olunan mövzulara görə faktların dəqiqliyi, ideyanın orijinallığı, həsr olunan mövzunun təqdimatı və onun açılması, müəllif mətninin Azərbaycan ədəbi dilinin normalarına uyğunluğu, həsr olunmuş mövzuya uyğun nəticəli final kimi meyarlar əsas götürülüb.

Münsiflər heyətinin qərarına əsasən Asim Quliyev I, Nail Nağıyev və Tural Əliyev II, Kamal İbadov və Əzim Cəfərli III yerlərə layiq görülüblər. Qaliblər təşkilatçılar tərəfindən diplomlar və pul mükafatı ilə təltif ediliblər. Müsabiqədə yaradıcılıq fəaliyyəti ilə fərqlənən Kamil Məmmədli və Sübadə Əliyeva isə fəxri fərmanla təltif olunublar.

Tədbirin sonunda qalib sosial çarx və qısa filmlər nümayiş etdirilib.

**Gülcamal TAHİROVA**

İdman

# Şahmat birincilikləri davam edir



Naxçıvan Şahmat Mərkəzində “Şahmat beyinin gimnastikasıdır” devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin V-VI siniflərində təhsil alan oğlanlar arasında şahmat üzrə şəxsi birincilik keçirilib.

Naxçıvan Şəhər Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkil etdiyi birincilikdə 17 tam orta məktəbdən, ümumilikdə, 51 şagird iştirak edib. Yarış İsveçrə sistemi ilə 5 turdan ibarət olub.

Şəxsi xarakter daşıyan birinciliyin yekun nəticəsinə əsasən 7 nömrəli tam orta məktəbin şagirdi Rza Həsənov qalib adını qazanıb. Bu məktəbin digər şagirdi Məsud Rəhimli ikinci, 3 nömrəli tam orta məktəbin şagirdi Elçin İsmayılov isə üçüncü olub.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbdə də “Şahmat beyinin gimnastikasıdır” devizi altında keçirilən ümumtəhsil məktəblərinin şagirdləri arasında seçmə şahmat yarışına yekun vurulub. 5 turdan ibarət yarışın nəticəsinə əsasən Mövlud Süleymanlı, Fərid Kərimli və Zamin Məhərrəmli ilk üç pillədə qərarlaşıblar.

Hər iki yarışda qaliblərə təşkilatçıların diplomları təqdim olunub.

# Güləşçilərimizdən daha iki medal

*Bakı şəhər Şağan Olimpiya İdman Kompleksində Minbulaq Hüseynovun xatirəsinə həsr olunmuş 2005-2006-cı illər təvəllüdlü idmançılar arasında sərbəst güləş üzrə IV açıq respublika turniri keçirilib.*

Turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları da iştirak ediblər.

İdmançılarımızdan 38 kiloqram çəki dərəcəsində mübarizə aparan Ramil İsmayılov yalnız final görüşündə məğlub olaraq turnirin gümüş medalını qazanıb. 52 kiloqram çəki



dərəcəsində isə Tuncay Məmmədov turnirin üçüncüsü olub.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Behbudov Əli Səməd oğlunun adına olan 14290 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 152